# Qurucu liderin iqtisadi strategiyası



**Ümummilli lider Heydər Əliyevin tükənməz mənəvi irsi onun çoxəsrlik tariximizin ən mükəmməl və qüdrətli şəxsiyyəti olduğunu qəti olaraq sübut etmişdir. Azərbaycanın müstəqilliyini təmin etməklə, suveren dövlətin əsaslarını yaratmaqla ulu öndər xalqımızın mötəbər və təminatlı gələcəyinə böyük yol açmışdır.**

Çağdaş Azərbaycan tarixinin bütöv bir dövrü ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bilavasitə bağlıdır. Ölkəmiz 64 ildir ki, sevimli liderinin amal və ideyalarına uyğun olaraq irəli gedir, çətinlik və maneələri inamla dəf edir, tarixə yazılan böyük nailiyyətlər əldə edir. Tərəqqipərvər insanlar və bütün Azərbaycan xalqı Heydər Əliyevin şəxsiyyətinə, onun ideyalarına, qoyduğu dəyərli irsə böyük hörmət və ehtiramla yanaşırlar. Onun bir qərinəlik rəhbərliyi dövründə respublikamız əsrə bərabər inkişaf yolu keçmişdir.

Ulu öndər öz ölkəsinə rəhbərlik etdiyi hər iki dövrdə var qüvvəsini və bacarığını Azərbaycanın yüksəlişinə həsr etmiş, respublikamızın hər yerində nəhəng quruculuq işlərinin təşəbbüskarı olmuşdur. Onun liderlik fəaliyyətinin ilk 2 onillik dövrü ölkənin müstəqillik dövrünə hərtərəfli hazırlıq tədbirləri ilə əlamətdar olmuşdur. Azərbaycan müstəqilliyin ilk addımında naşı siyasi qüvvələrin məsuliyyətsizliyi və xəyanətkarlığı səbəbindən məhv olmaq təhlükəsi ilə üzləşəndə isə ümummilli lider öz xaqının harayına yetişərək onun xilaskarına çevrildi.

Tarixi fəlakət məqamında xalqın ümidgahına çevrilmiş Heydər Əliyev həmin tarixi sınaq günlərində mürəkkəb siyasi reallığı, üzərinə düşən ağır və taleyüklü missiyanı belə cavablandırmışdı: “Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram”.

Xalqımızın qüdrətli oğlunun zəngin təcrübəsi və siyasi iradəsi hərbi-siyasi böhranı aradan qaldırmaqda, sabitlik və milli birliyi təmin etməkdə, dirçəliş və inkişafa nail olmaqda həlledici rol oynadı.

Bu gün biz fəxrlə deyirik ki, Azərbaycanı dünya dövlətləri arasında irəli çıxaran, xalqı məhv olmaqdan xilas edən, onun gələcək inkişafına möhkəm zəmin yaradan ulu öndər Heydər Əliyev oldu. Dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyev tükənməz enerjisini nəinki öz xalqının, dövlətinin inkişafına, bütövlükdə, dünya xalqlarının iqtisadi, mədəni səviyyəsinin yüksəlməsinə, mehriban münasibətlərin dərin kök salmasına sərf edirdi.

Ümummilli liderimiz Heydər Əliyev keçmiş SSRİ məkanında yaranmış Müstəqil Dövlətlər Birliyi çərçivəsində hamının öyrənmək istədiyi siyasətçi idi. MDB dövlət başçılarının sammitlərində çıxış edən Azərbaycan liderinin hər bir təklifi böyük maraq və ehtiramla qarşılanırdı. O, bütün dünya siyasətçiləri arasında uzaqgörən şəxsiyyət kimi böyük nüfuz və hörmət qazanmışdı. Böyük siyasət qrossmeysterlərindən sayılan ABŞ prezidentinin milli təhlükəsizlik üzrə keçmiş müşaviri Zbiqnev Bjezinski Heydər Əliyevi “siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət, bir sözlə, şəksiz lider” kimi yüksək qiymətləndirmişdir.

Məhz Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilən tarixi Böyük ipək yolu dünyamızın Şərqi ilə Qərbini birləşdirərək bütün dövlətlərin inkişafına mühüm təkan vermişdir. Bu siyasətin davamı olaraq sonrakı illərdə Azərbaycan bir sıra qlobal layihələrin önəmli həlqəsi və tərəfdaşı rolunu inamla gerçəkləşdirmişdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın neft-qaz ehtiyatını dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ölkənin iqtisadi tərəqqisinin təmin edilməsi və xalqın rifahının yüksəldilməsi amilinə çevrilməsinə məharətlə nail oldu. Qurucu liderin rəhbərliyi altında hazırlanmış, beynəlxalq aləmdə yüksək qiymətləndirilmiş “Əsrin müqaviləsi” sonradan haqlı olaraq “Heydər Əliyevin neft strategiyası” adı aldı. Bu tarixi bağlaşma Azərbaycanın iqtisadi müstəqilliyinin təməl daşına çevrildi, azad iqtisadi mexanizmlərin tətbiq edilməsini və respublikamızın dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin etdi.

Böyük rəhbərin ən layiqli davamçısı Prezident İlham Əliyev müstəqil dövlətin neft strategiyasının uğurlarından söz açaraq demişdir: “Azərbaycan müstəqil dövlət kimi öz neft potensialını çox uğurla işə salıbdır. Əlbəttə ki, bütün bu görülən işlərin səbəbkarı və təşəbbüskarı xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur”. Ümumiyyətlə, respublikamızda imzalanmış 20-dən artıq beynəlxalq neft müqaviləsi çərçivəsində görülən müştərək işlər ölkəmizə mütərəqqi texnologiyaların gətirilməsi, neft sənayesinin infrastrukturunun yenidən qurulması, nəqliyyat və xidmət sahələrinin inkişafı, yüksək peşəkar milli kadrların hazırlanması və minlərlə yeni iş yerinin açılması üçün geniş imkanlar açmışdır.

Azərbaycanda 1993-cü ilin ikinci yarısından etibarən ümummilli lider Heydər Əliyev tərəfindən aparılan məqsədyönlü daxili və xarici siyasət nəticəsində 1995-ci ildə ölkədə yaranmış ictimai-siyasi sabitlik sosial-iqtisadi problemlərin həllini, o cümlədən əhalinin həyat səviyyəsinin yaxşılaşması sahəsində görülən işləri ön plana çəkmişdir. Ardıcıl olaraq aparılan islahatlar qısa müddət ərzində öz bəhrəsini verməyə başlamış və iqtisadiyyatın ayrı-ayrı sahəsində ciddi irəliləyiş əldə edilmişdir. Görülən məqsədyönlü və uzaq perspektivlərə hesablanmış tədbirlər nəticəsində geriləmənin qarşısı birdəfəlik alınmış, Azərbaycan sürətli və hərtərəfli inkişaf yoluna çıxmışdır.

Böyük strateq Heydər Əliyevin rəhbərliyi ilə dövlət müstəqilliyimizin təmin edilməsi və bazar münasibətlərinin inkişaf etdirilməsi sahəsində aparılan iqtisadi islahatlar Azərbaycanın iqtisadiyyatının inkişafı və dünya təsərrüfat sisteminə daha sıx inteqrasiya olunması üçün əlverişli şərait yaratmışdır. Azərbaycan iqtisadi və siyasəti suverenlik əldə etdikdən sonra dünya dövlətləri ilə sərbəst əməkdaşlıq etmək imkanı qazanmışdır. Müstəqil dövlətin memarının müəyyən etdiyi iqtisadi siyasət strategiyasının başlıca istiqamətlərini sabitləşdirmə, islahatlaşdırma, dünya iqtisadi inteqrasiyasına qoşulma, sosial-iqtisadi inkişaf və xalqın rifahının yüksəldilməsi və s. təşkil edir.

Ulu öndərin inkişaf strategiyasını yeni çalarlarla zənginləşdirən Prezident İlham Əliyevin praqmatizmə söykənən səmərəli fəaliyyəti nəticəsində Azərbaycanın sosial-iqtisadi tərəqqisi daha intensiv xarakter almağa başlamışdır. Ölkə başçısının rəhbərliyi altında həyata keçirilən iqtisadi siyasətin fərqləndirici xüsusiyyətləri bu sahədə sürətli inkişafa xidmət edən bütün istiqamətlər üzrə fəaliyyətin paralel şəkildə həyata keçirilməsi və əlaqələndirilmiş proqramlar üzrə aparılmasıdır.

Prezident İlham Əliyev ötən dövr ərzində ulu öndərin qurduğu təməl üzərində Azərbaycanın dövlət kimi dayaqlarını möhkəmləndirib. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə həyata keçirilən qlobal enerji-kommunikasiya layihələri regionun geopolitik mənzərəsini yenidən müəyyənləşdirib. Son 20 ildə ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilib. Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub, Orta nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını da gücləndirib.

Artıq işğaldan azad edilmiş Qarabağ ərazisində böyük quruculuq işləri həyata keçirilir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva vaxtaşırı tikinti meydançalarında olurlar. Son bir neçə gündə dövlət başçısının Ağdamda və Şərqi Zəngəzur bölgəsində start verdiyi çoxsaylı önəmli layihələrlə Böyük Qayıdışa hazırlığın yeni mərhələsi başlandı.

Bütün bunlar xalqımızda sonsuz qürur hissi və vüsətli quruculuq əzmi yaradır. Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin Ata vəsiyyətini şərəflə yerinə yetirir. Ulu öndərin tükənməz ideya irsi və Azərbaycanın gələcəyi ilə bağlı böyük arzuları isə ölkəmizi dünya birliyində ön mövqelərə çıxarır.

***Arif ŞƏKƏRƏLİYEV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, Əməkdar elm xadimi***

zamanda, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələrinə əsaslanır. Bu hüquqi islahatlar azad cəmiyyətin formalaşmasına, hüquqi, demokratik dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat yaradır.

Azərbaycanda müstəqil məhkəmə hakimiyyətinin formalaşması ümummilli lider Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Konstitusiyanın qəbulu ilə məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin müstəqil qolunun bütün atributlarına, hüquqi dövlətin prinsip və vəzifələrinə uyğun olaraq, qanunverici və icra hakimiyyəti ilə eyni statusu qazandı. Ulu öndərin təşəbbüsü ilə 1997-ci ildə “Məhkəmələr və hakimlər haqqında” yeni Qanun qəbul edildi. Qanunun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair fərman imzalandı. Ümummilli liderin rəhbərliyi ilə aparılan əsaslı məhkəmə-hüquq islahatları nəticəsində üçpilləli müstəqil məhkəmə sistemi formalaşdırıldı.

1998-ci ildə isə Azərbaycan Respublikası Prezidenti yanında məhkəmələrin təşkil edilməsi, hakim vəzifəsinə namizədlərin seçilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri öz səlahiyyətləri dairəsində həyata keçir-